# İkinci Qarabağ müharibəsi Azərbaycanın şanlı tarixidir

***Bu gün xalqımız tarixi zəfərin birinci ildönümü ərəfəsindədir. Bir neçə gündən sonra bu taleyüklü hadisə– Vətən müharibəsində şanlı qələbəmiz respublikamızda təntənə ilə qeyd ediləcək. Ölkə Prezidenti, Silahlı Qüvvələrimizin Ali Baş Komandanı İlham Əliyevin qətiyyətli sərkərdəlik fəaliyyəti, müdrik siyasəti və Allahdan rəhmət dilədiyimiz hər bir şəhidimizin, cansağlığı arzuladığımız hər bir qazimizin güc-qüdrəti, döyüş ruhu ilə xalqımıza bəxş edilən bu parlaq qələbənin sevinc-fərəhini həm də ədliyyə işçilərinin peşə bayramı ərəfəsində yaşayırıq.***



Bu Zəfər Günü deyərdim ki, Ədliyyə Nazirliyinin 103 ildə keçdiyi zəngin, keşməkeşli bir yolun ən şərəfli, ən uca bir məqamıdır. Bu sevinc, bu fərəh ədliyyə və məhkəmə işçilərini Azərbaycanda getdikcə geniş miqyas alan hüquqi islahatlarda fəal iştiraka, qalib bir ölkənin vətəndaşları kimi gələcək uğurlara daha önəmli töhfələr verməyə sövq edir.

Vətən müharibəsi başlanan gündən ədliyyə və məhkəmə işçiləri də döyüşlərə könüllü qoşularaq, böyük fədakarlıq, misilsiz şücaət göstəriblər və ölkə Prezidenti tərəfindən 100-dən çox medalla təltif olunublar. Ədliyyə və məhkəmə işçiləri, həm də hərbçilərimizə, qazilərə və şəhid ailələrinə ilk gündən öz dəstəklərini əsirgəməyiblər, Silahlı Qüvvələrimizin Yardım Fonduna, "YAŞAT" və Qarabağ Dirçəliş fondlarına könüllü vəsaitlər köçürüblər.

Vətən savaşının gedişində və ondan sonrakı vaxtlarda Ədliyyə Nazirliyi tərəfindən xarici dövlətlərin ədliyyə nazirlərinə, dünya prokurorlarına, nazirliyin sıx tərəfdaşlıq etdiyi nüfuzlu beynəlxalq təşkilatlara müraciətlər ünvanlanaraq, həmçinin müxtəlif dövlətlərin səfirləri ilə görüşlər keçirilərək Ermənistanın beynəlxalq insan hüquqları və humanitar hüquq normalarını kobud surətdə pozması, müharibə və insanlıq əleyhinə cinayətlər törətməsi ətraflı vurğulanıb, beynəlxalq birliyə bu məsələdə ədalət naminə prinsipiallıq göstərərək qəti tədbirlər görməyə çağırış edilib.

Ədliyyə Nazirliyi tərəfindən post-konflikt dövründə də İkinci Qarabağ müharibəsi iştirakçılarının, qazi və şəhidlərimizin ailə üzvlərinin müraciətlərinə xüsusi həssaslıqla yanaşılaraq qaldırılan məsələlərin həlli üzrə zəruri tədbirlər görülüb və onların bir çoxu ədliyyə orqanlarında müvafiq işlə təmin edilib. Bundan başqa, ədliyyə orqanlarında Vətən müharibəsində iştirak etmiş ədliyyə işçiləri və könüllüləri ilə yığıncaqlar keçirilib, ağacəkmə aksiyası təşkil olunub, cəzaçəkmə müəssisələrindəki dini ibadət yerlərində şəhidlərimizin ruhuna dualar oxunub, namaz qılınıb və ehsan verilib.

Vətən müharibəsindən ötən bir il ərzində ədliyyə orqanlarında və məhkəmələrdə təşkil olunan silsilə tədbirlərdə xalqımızın ədalət savaşında zəfər yürüşünə nəzər salınıb, ədliyyə işçiləri və hakimlər tərəfindən mətbuatda çıxışlar edilib, tarixi qələbəmizlə bağlı foto və video-materiallar nümayiş olunub.

Mərasimlərdə Prezident, Ali Baş Komandan cənab İlham Əliyevin ən sadiq silahdaşı olan respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti, cəbhədə döyüşən igid hərbçilərimizə dəstəyi və qayğılı münasibəti, xalqımızın ədalətli mübarizəsi naminə hər birimizi informasiya platformalarında mübarizəyə sövq edən vətənpərvər çağırışları xüsusi vurğulanıb.

Ölkəmizin ərazi bütövlüyü uğrunda aparılan İkinci Qarabağ müharibəsində əldə edilən möhtəşəm qələbəyədək Azərbaycan 30 ilə yaxın bir yol qət edib. Bu yol əvvəldən sonadək qanlı-qadalı olub. Bu müddətdə ərazimizin 20 faiz hissəsinin erməni faşizmi tərəfindən işğal edilməsi, məcburi köçkünlərin yurd-yuvalarından didərgin salınması, neçə-neçə igid əsgər və zabitimizin şəhadətə yüksəlməsi, bununla yanaşı, son illərdə Azərbaycan Ordusunun güc-qüdrəti ilə Naxçıvanda, Cəbrayılda və digər təmas nöqtələrində misilsiz qəhrəmanlıqları ilə geniş həcmdə torpaqlarımızın düşmən tapdağından azad olunması, qəsbkarın cəzalandırılaraq yerində oturdulması ilə yadda qalıb.

Lakin bütün bunlar Ermənistana dərs olmurdu. İşğalçı ölkə davamlı təxribatlar törətməkdən əl çəkmirdi. Düşmən sonuncu belə mənfur addımı ötən il sentyabrın 27-də atdı. Nəhayət, səbr kasası daşan Azərbaycan əks-həmlə əməliyyatları ilə Vətən müharibəsinə başladı və 44 günlük savaşla Ermənistan ordusunu darmadağın edərək, ölkəmizin ərazi bütövlüyünü gerçəkləşdirdi. Eyni zamanda, öz ərazisində beynəlxalq hüququ reallaşdıran Azərbaycan güc yolu ilə qəsbkarı BMT-nin qətnamələrini yerinə yetirməyə məcbur etdi.

Silahlı Qüvvələrimiz Vətən müharibəsində düşmənin komanda məntəqələrinə güclü zərbələr endirməklə onun manevr edən çoxlu sayda canlı qüvvəsini, döyüş texnikasını və hərbi obyektlərini sıradan çıxardı. Ordumuz ötən il sentyabrın 27-dən noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəkliklərini və daha 5 adsız yüksəkliyi yağılardan təmizlədi.

Azərbaycan böyük qələbənin ilk addım səslərini isə noyabrın 8-də Qarabağın ürəyi sayılan, incisi hesab olunan Şuşa şəhərinin işğaldan azad edildiyi ilk saatlarda eşitdi. Bəli, bu qədim yurd yerimizin xilası ilə tam qələbəmizə yol açıldı. Düşmənin ağ bayraq qaldırmaq və kapitulyasiya etməkdən başqa yolu qalmadı. Beləliklə, Silahlı Qüvvələrimiz dünya hərb tarixinə yeni bir səhifə yazmaqla nəyə qadir olduğunu beynəlxalq aləmə nümayiş etdirdi.

Şübhəsiz ki, Vətən müharibəsində möhtəşəm uğur Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin fəaliyyətində ordu quruculuğuna verdiyi önəmin məntiqi nəticəsi idi. Yeri gəlmişkən, hələ 2003-cü ildə andiçmə mərasimindəki nitqi zamanı dövlətimizin başçısı demişdi: "Azərbaycanda ordu quruculuğu daim mənim diqqət mərkəzimdə olacaqdır. Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır. Əminəm ki, Azərbaycanın iqtisadi potensialı ordumuzun ən yüksək standartlara cavab verməsinə və qarşıda duran bütün vəzifələri yerinə yetirməsinə imkan verəcəkdir".

Bütün sahələrdə olduğu kimi, bu məsələdə də verdiyi vədə sadiq qalan Prezident, Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsi başlanana qədər müasir döyüşlərin aparılmasında mühüm əhəmiyyət daşıyan hərbi texnikanın alınmasını, son dərəcə yüksək dəqiqliklə hədəfi vuran və qarşısıalınmaz zərbə gücünə malik silahların hərbi arsenala daxil edilməsini yüksək səviyyədə gerçəkləşdirmişdi. Bir sözlə, Silahlı Qüvvələrimizin döyüş imkanları tamamilə modernləşdirilmişdi.

Xalqımız İkinci Qarabağ müharibəsində "Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim siyasətimizin mənbəyi Azərbaycan xalqıdır, onun iradəsidir və onun maraqlarıdır", – deyən Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi, bu inam, bu həmrəylik isə savaşda əldə edilən möhtəşəm uğurumuzu şərtləndirdi. Bu, Azərbaycan və Rusiya prezidentləri və Ermənistan baş naziri tərəfindən imzalanan üçtərəfli bəyanatla təsdiqləndi. Beləliklə, ölkəmiz həm döyüş meydanında, həm də danışıqlar masası arxasında istəyinə nail oldu. Beləliklə, Ermənistan-Azərbaycan münaqişəsinə son qoyuldu.

Müharibə günlərində hərbi əməliyyatların aparılmasında Prezident, Ali Baş Komandan İlham Əliyevin müntəzəm olaraq çatdırdığı qələbə xəbərləri, işğaldan azad olunan yaşayış məntəqələri, düşmənin məhv edilən canlı qüvvəsi və hərbi texnikası barədə məlumatları da ölkəmizin hər bir vətəndaşında qürur, fərəh hissi doğururdu, xalqın dövlətimizin başçısına, rəşadətli ordumuza inamını daha da gücləndirirdi.

İndi doğma, əzəli-əbədi Qarabağ torpağında genişmiqyaslı tikinti-quruculuq tədbirləri sürətlə aparılır. İşğaldan azad edilən ərazilərimizdə erməni vandallarının illərlə törətdikləri vəhşi əməllər hər addımda nəzərə çarpır. Viran qoyulan şəhər və kəndlərimiz, dağıdılan, təhqir edilən məscidlərimiz, yer üzündən silinən tarix və mədəniyyət abidələrimiz düşmənin nə qədər barbar, vəhşi olduğunu göstərir.

Əlbəttə, bütün dağıntılar məqsədli şəkildə edilib. Bu mənfur millət Ermənistan ərazisindəki tarixi torpaqlarımızda, Qarabağda və ətraf rayonlarda azərbaycanlılara aid tarixi mirasları viran qoymaqla azərbaycanlıların bu ərazidəki mədəni kimliyinin itirilməsi məqsədi güdüb.

Erməni vandalizminin, təkcə Azərbaycan xalqına yox, ümumən bəşəriyyətə təhlükə yaradan erməni faşizminin ifşası üçün yerinə yetirilməli vəzifələrə diqqəti yönəldən Prezident İlham Əliyev deyib: "Biz təkcə öz ərazi bütövlüyümüzü bərpa etməmişik, biz erməni faşizmini məhv etmişik. Biz bölgəmizi faşist ideologiyasından tam xilas etməsək də, onun böyük hissəsini məhv etmişik. Buna görə bizim şanlı Qələbəmiz bölgə üçün, dünya üçün çox böyük əhəmiyyət daşıyır... Erməni faşizmi ən qəddar, ən təhlükəli, ən mənfur, ən çirkin ideologiyadır və biz bu ideologiyanı məhv etdik. Hesab edirəm ki, illər keçdikcə bizim bu tarixi xidmətlər dünya tərəfindən daha da dolğun şəkildə dərk ediləcək".

Erməni vandallarının xarabazara çevirdikləri yurdlarımızın bərpası, inkişaf axarına qovuşması, sosial-iqtisadi dirçəlişi hazırda dövlətimizin qarşısında duran ən mühüm vəzifədir. Dövlətimizin başçısı hər zaman bütün məsələlərdə olduğu kimi, bu istiqamətdə də aydın planlara, strateji hədəflərə malikdir. Bax, elə buna görə də xalqımız Qarabağın tezliklə dünyanın ən abad ərazilərindən birinə çevriləcəyinə, cənnət diyar kimi tanınacağına əmindir.

Prezident İlham Əliyevin işğaldan azad olunan rayonlara mütəmadi səfərləri də bir daha göstərir ki, Azərbaycan dövləti düşməndən təmizlənən ərazilərin bərpası və yenidən qurulması ilə bağlı layihələrin reallaşdırılmasını diqqət mərkəzində saxlayır. Dövlətimizin başçısı tərəfindən erməni barbarlığının qurbanı olan yaşayış sahələrində mühüm strateji obyektlərin, müəssisələrin təməlinin qoyulması, tikinti işlərinin geniş vüsət alması, yüksək texnologiyaların tətbiqinə start verilməsi də bunun bariz ifadəsidir.

***Zaur PİRVERDİYEV,***
***Bakı Kommersiya Məhkəməsinin hakimi***